# ŞEİRİMİZİN CIĞATELİ



*Əkbər ƏLİOĞLU,*
*filologiya üzrə fəlsəfə doktoru*

Fitri təbin, istedadın əsas göstəricisi daha çox iki formada olur. Söbət, təbii ki, poetik təfəkkür sahibli istedaddan gedir. İlkin formada söz bu fitrətin İlahidən gələn çağlar nəğməsidir. Burada təfəkkürü yükləməyə, axtarışa məcburetmə azdır. Bu cür fitrətə sahib olanlar əsrdən bir, min ildən bir yetişir. Bir də var bədii təfəkkür ilham pərisinin diktəsilə söz dünyasının arxeoloji qazıntısında olur, fikrin müəmmalı, təsirli ifadəsi üçün söz külçələrini arayıb ən dəyərli və yeni görünənlərini poetik qaliba salır. Hər iki halda şeirin klassik nümunələri yaradılır, könüllər məmləkətində intibahlar oyadır, düşüncələrdə, qangen yaddaşında əbədi yaşamaq haqqı qazanır. Özünü ikincilərdən hesab edən xalq şairi Səməd Vurğun aşıq Ələsgər poeziyasından söhbət açarkən onu çağlar təbli fitri istedad hesab etmiş, poetik təsərrüfatını təbii axımlı dağ şəlaləsinə bənzətmişdir. Bizim dövrümüzdə bu səlahiyyətə xalq şairi Zəlimxan Yaqub yiyələnmişdir.

Qadın şairlərimizin poetik istedadlarını qətiyyən kölgəyə salmadan deyə bilərik ki, bu şəlalə axımlılıq Zəlimxan Yaqubun müasiri şairə Cığatel İsaqızının qismətinə yazılıb. Özü də Z.Yaqub kimi xalq və aşıq şeiri üslubunda, heca vəzninin zəngin poetik forma və şəkillərində. Öz taleyinə həsr etdiyi poema və şeirlərində onun S.Vurğun misralarına müraciəti Vurğun məktəbinə vurğunluğu fikrimizi bir daha təsdiq etməkdədir. Və həm də nəinki təsdiq etməkdədir, eyni zamanda şeirlərinin poetik vüsəti, forma və məzmun zənginliyi, ideya - bədii siqləsi baxımından klassik şeir ənənələrinə bağlılığına, sərbəst şeirin uzanan üfüqlərinə belə meydan oxuma meylinə də göz yummaq mümkün deyil. Təbii ki, bu meydanoxumada qarşıqoyma yox, kamil, mükəmməl ifadəsini tapmış vəznindən, ölçüsündən asılı olmayaraq SÖZün uca və təsirli məkanını göstərmək var. Onun poetik təsvir imkanlarından əlavə misralarının struktur quruluşu, bənd, qafiyə sistemi də xalq şeiri ənənələrinin, aşıq şeirinin fonetik uyuşmaları, poetik sintaksisi sisteminin nümunəvi qatlarıyla müşayət olunur. Bir sözlə səs-söz ahənqinin axar-baxarlığı təbiidir, şəlalə axımlıdır. Öncə qeyd etdiyimiz kimi söz onun sinəsindən bulaq kimi çağlayıb şəlalətək axıb ürəklərə yol açır. Bunları təkcə onun fitri qabiliyyətilə məhdudlaşdırmaq olmaz. Şairə dünyagörüşü, ədəbi-bədii bilgisi, düşüncələrinin genişliyi ilə də diqqəti cəlb edir. Şeirlərindəki ifadə və izafətlərin təzə rəngdə, ahəngdə gerçəkləşməsi, məzmun bütövlüyünə ustalıqla yönləndirilməsi gözümüz önündə şeirimizin M.Dilbazi, N.Rəfibəyli, H.Billuri kimi maqiqant şairə qadınlarımızın ədəbi-mənəvi şəxsiyyətlərini canlandırır. Klassika üstəqəl elmi-ədəbi dünyagörüşünün zənginliyi, söz xəzinəmizin dərin qatlarına bələdliyi, dilinin lüğət fondunun genişliyi, nəhayət, tarixi bilqisi, dini-ürfani təsəvvürlərə bağlılığı onun dərin erudisiyaya sahib şair obrazına bir monumentallıq, mükəmməlik qazandırıb.

Yuxarıdakı qeydləri şairənin 2020-ci ildə çap olunmuş “Gözlərimdən Tanrıya bax” kitabına istinadən göstərmişik. Qeyd olunan cəhətlər bu kitabda yetərincə oturaqlaşıb. Bizim üçün daha vacib olan isə poetik fikrin məzmun mükəmməlliyi və qulağa təzə çatan deyim yeniliyi və təzəliyidir, poietik düşüncənin alt və üst qatlarındakı dərinliyi, bənzərsiz özünütəsdiqi, ədəbi hadisəyə səbəb olan bədii təsvirlərin qeyri adiliyi heyranlıq duyğuları yaratmanın komponentləridir. Ümumi yaradıcılığını başlıca olaraq qoşma üzərində kökləyən, eyni zamanda digər poetik formalarda - gəraylı, müxəmməs, hərbə-zorba, qıfılbənd, ustadnamə, nəsihətnamə, təcnis, bayatı və qarışıq şeir şəkilləri - əks etdirən, eyni zamanda hecanın başqa bölümlərində sürəkli edən şairənin bəzən professionallıq nümayiş etdirə bilməməsi, məzmun bəsitliyi və yeknəcəkliyi, poetik fikrin daha çox ənənəvi izafətlərdə təkrarçılığı söz və forma oyunbazlığı nümayiş etdirməsi diqqətdən yayınmır. Bunlar kitabda xüsusi saciyyəvilik kəsb etmədiyindən konkret nümunələrsiz ötüşməli olduq.

Poetik təfəkkür sahibinin bənzərsizliyi onun yaradıcılıq fərdiyyətinin möhür daşıdır. Həmin bənzərsizlik isə özünü yeni poetik nəfəsdə, fikir təzəliyində, söyləmlərin poetik çəkisində əyanіləşdirərək sənətkarın fərdi üslubunun, bədii zəkasının göstərişinə çevrilir. Üstəqəl mövzu genişliyi və ideya-məzmun təzəliyi, dərinliyi bu əlavə dəyərə bir ucalıq gətirir.

Cığatelin poeziyasında klassik aşıq şeirinə ruhən bağlılığı, oxşarlığı qabarıq şəkildə özünü göstərib; ilk növbədə məhəbbət şeirlərindəki poetik fikir gəzişmələri, söz-səs assosiasiyalarının yaratdığı təbii ahəngdarlıq, axıcılıq, oynaqlıq, eləcə də bir çox ənənəvi izafətlərin təzə çalarlarda, poetik forma və onların şəkillərində ustalıqla reallaşması xüsusilə diqqəti cəlb edir, özü də mövzu zənginliyi arealında. Dünyəvi fikir axarları, dini etiqad, səbr, inam, iman, Tanrı sevgisi, insanlığa, Vətənə, ailəyə, övlada, dosta, sirdaşa məhəbbət, Vətənpərvərlik duyğularının tərənnümü və təsviri, Türk dünyası birliyinə çağırış, Turançılıq məfkurəsinə sevgi və inam, qardaş Türkiyə dövlətinə ehtiram, eləcə də Qarabağ olayları Cığatel poeziyasının mövzu əlvanlığından xəbər verir. Bu mövzuların şahı - sevgidir, aşıq şeirinin aparıcı mövzusu olan məhəbbətdir. Cığatel şeirində bu məhəbbət ruh kimi oturaqlaşıb, hər sözündən, səsindən, nəfəsindən məhəbbət tökülür, Ələsgərdə, Molla Cümədə, Aşıq Alıdə, Qurbanidə, Dədə Şəmşirdə, Aşıq Əkbər Cəfərov, Aşıq Hüseyn Bozolqanlı, Aşıq Əsəd, Aşıq Mirzə Bilal və şairədə olduğu kimi. Burada Səməd Vurğun, Osman Sarıvəlli, Məmməd Aslan, Dədə Bəhmən, Alqayıt ovqatlarının da çalarlarını Cığatelə məxsus bənzərsilikdə müşahidə etmək mümkündür. Bu baxımdan onun şeirlərində sənətkarlıq yetərincə klassika üzərində qurulub, sanki bu şeirlər klassiklərin sinəsindən qoparaq Cığatel poeziyasına hopub.

Cığatelin məhhəbbət poeziyası sanki onun fərdi dünyasının tərcümanıdır, bu şeirlər özünü yazan sənətkar ömrünün məhəbbətlə ötən çağlarının, yaşantılarının etirafıdır: səmimi, həqiqi, təmiz, saf, arı, duru, İlahidən gələn eşqin yaşam səadəti, sevinci, ehtirazı, ağrısı, kədəri, hicranı, gözəlliyi, və nəhayət, çox çalarlı məzmun və forma gəzişmələrində gözəlliyi, ülviyyəti, təbiiliyi, canlı, hərəki reallığı oxucunu özünün axarına salır, məhəbbət keçidlərində, çəmənlərində, günəşində, ayında, ulduzunda, çayında, buludunda, yağışında, payızında, qışında, gecələrində, sübh şehində gəzdirir, ruhunu canlı nəfəslə doldurur. Şairənin səmimiliyi, ustalığı ondadır ki, bu məhəbbəti eyni zamanda fərdiyyət ətəyindən alıb içtimai baxış sferasında hər kəsin öz yaşantısı kimi təqdim edib. Özünüyazmaqlığı, duyğusallığı, nəhayət, isməti, abrı, həyanı öz bakirə poeziyasının təmizliyində təsdiq edə bilib.

Cığatel İsaqızının yaradıcılığına tam halda bələd deyilik. Onun 2011-ci ildə işıq üzü görmüş “Sevmək beləmi olur?!” kitabıyla səthi tanışlığımız olmuş “qıfılbənd” və “dəyişmə”ləriylə, məhəbbət şeirləriylə heca vəznli xalq şairi və aşıq ədəbiyyatı təməlli şair olduğunu təyin etmişik. Burada nə yazmış, və nə deyəcəyiksə “Gözlərimdən Tanrıya bax” (2020) şeirlər kitabına istinad olunub. Qeyd olunanlar nə dərəcədə Cığatel poeziyasında gerçəkləşib?

- Sitatlarla danışmaq məqamə yetişdi.

İlk öncə şairənin ən güclü, təsirli şeirlərinin adlarını sıralamaq istərdik: “Sevmək beləmi olur?!”, “Mənim ürəyimdəsən”, “Bu sevgimiz nağıllara bənzədi”, “Gedirəm qurban olmağa”, “Eşqin mizanı”, “Qoşmaya qoşma”, “Hardasan İbn-Sina”, “Sədd çəkmə qarşıma”, “Açıl sabah”, “Adsız varlıqlar”, “Allaha məktub”, “Mən sığınmışam, ey qadir Allah”, “Bir kitabım, son sözüm”, “Sevgimi sevən adam”, “Özünə vəfalı yar gəzən oğlan”, “İnci”, “Hər gecə nişanlanıram”, “Ulu Türk”, “Çanaqqala savaşı, qəhrəmanlıq tarixi”, “Azərbaycan-Türkiyə”, “Azərbaycan dünyaya Günəş kimi doğacağ!”, “İnsan ol”... Bu şeirlərin heç biri ədəbi hadisə mövzusu olmayıb. Yalnız “Sevmək beləmi olur?!” şeirinin populyarlaşması bizə məlumdur. Aşıq Telli Borçalı bu şeiri xüsusi bir əda və



intinasiya ilə söyləyib. Bu şeirlərdən yalnız “Sevmək beləmi olur?!” , “Gəlirəm qurban olmağa”, “Eşqin mizanı”, “Bir kitabım, son sözüm”, “İnci”, “Azərbaycan-Türkiyə”, “Azərbaycan dünyaya Günəş kimi doğacağ!” şeirləri klassik bir səpgidə özlərinin uğurlu və dəyərli ifadəsini taparaq şairəyə başucalığı gətirmişdir. Ümid edirik ki, o, yaddaşlarda daha çox “Sevmək beləmi olur?!”, “İnci” və “Azərbaycan-Türkiyə” şeirləri ilə qalacaq və seviləcək. Buna da şükür, axarını görək. “Şairənin bu güclü şeirlərinin yarıya qədəri sayında isə bəyənimli şeirləri vardır. Onların hər birinə “İstedadlı şair sözüdür” dəyərini vermək mümkündür, yəni “oxumağa dəyər” - söyləmək olar.

Şairənin 90-a yaxın şeirinin 1, yaxud 2 bənd, bir beyt, yaxud misralarında poetik vüsət, məzmun kamilliyi, yeni, bənzərsiz poetik söyləmələr diqqətimizi daha çox çəkmişdir. Göstərilən bu kəmiyyət və keyfiyyət göstərici Cığatel İsaqızı haqqında tanınmış və istedadlı şair kimi söz açmağa tam səlahiyyət verir. On cilidlikdən bir cildlik, bir cildlikdən 3-5 şeirlik yaddaşlara yazılmaq aksiomasıyla tənləşə bilən naticədir. Bütün bunlara baxmayaraq, yuxarıda qeyd etdiyimiz kimi “Gözlərimdən Tanrıya bax” şeirlər kitabında söz oyununu xatırladan zəif şeirlərə, məntiqi cəhətdən qüsurlu görünən bənd, beyt və misralara da təsadüf etmək olur. Bu barədə ciddi şəkildə düşünməyə dəyər. Təbii təəblə gələn hər sözə də məsuliyyətlə yanaşmaq, analitik təfəkkür qatlarında nizam vermək gərəkdir, axı.

*(Davamı 14-cü səhifədə)*

# ŞEİRİMİZİN CIĞATELİ

*(Əvvəli 13-cü səhifədə)*

Səriştəli, ya səriştəsiz məmur, müfəttiş yoxlamasına son verib ədəbi təhlilçi mövqeyini sərgiləyən sitatların dililə danışaq. Elə birinci "Sevmək beləmi olur?!" şeirindən başlayaq. Burada sevgi dərsi keçilmir, bütün ruhun yaşantıları öyrədilmir, fiziki və mənəvi yaşantılar, diriliyin, ölülüyün təzahür ekvivalentllikəri və s. sevgi üzərində qurulub, yaxud da sevgi onların üzərinə köçürülüb. Adı çəkilməsə də "beləmi" sual ədatıyla əslində elə "sevgi budur" xəbərinin mahiyyəti, məzmunu, sevginin nişan verilməsi "Mən ki səni sevirəm"in fiqur dəyişkənliyinin təsdiqinə yönləndirilib. Elə buna görə də son bənddəki altıncı misrada sual şəkilli inkarlıq kateqoriyası da əslində sevirəmin bir oyun, şuxluq formatındakı təsdiqidir, özüdür. Şeirin özəlliyi, söyləmdəki fiqur təzəliyi də elə bununla təyinlənir, nəticədə sevgi şeirinin klassik bir nümunəsi dinamik şəkildə gözümüz önündə cilvələnir. Son bənddə bu dinamizm qalım-olum antoqonizmi önündədir; bir halda ki, sevginin qüdsiyyəti "Mən səni sevmirəm ki?.." ədatının elə özündədir, özüdür, bəs onda "Səni sevirəm desəm", bu ədat necə olsun? Gəl indi koru körpüdən keçird görüm necə keçirirsən. "Sevməyin belə" bir deyim formatında elan edilməsi diqqətçəkəndir, yeni ifadə formasıdır. Elə bu cəhətinə görə o, bənzərsizlik, bədii tutumluq və həyatı gerçəklik qazanıb.

Deyirsən Cığatelə de ki, sevirəm səni,
Səni sevirəm desəm, itirəcəksən məni.
Ölüm-zülüm söylədim ürəyimdən keçəni,
Daha nə istəyirsən, mən səni sevmirəm ki?..

İlk baxışda bu ölümlü-zülümlü, bədii təzadlı kolliziya şux, oynaq formatda görünür, burada şairin ustalıqla qurduğu bir oyun var; komikmi, fəcimi, ya realmı? Hansı halda olursa olsun bu bir oyundur. Təkcə oyundurmu? Əslində burada bir dialektika var, müəllif bəlkə də bunun fərqinə varmayıb. Məgər mövcüdiyyət, küllü-varlıq, yəni məkansız, zamansız, kainatın hərəki varlığı kəmiyyət və keyfiyyət, təsadüf və zərurət, inkarı inkar dialektikasından ibarət bir "oyun" deyilmi?

Bu "oyun" cəzbetmə üzərində qurulbayıbmı? Hər canlı və şansızların daxili nüvəsindəki əksiklərin vəhdəti halında baş verən partlayışlar (böyük patlayışı yada salın - Ə.Ə.) məgər bir oyun deyilmi? Müdriklər, aqillər, alimlər buna sevgi deməyiblərmi? Sevginin komik, fəci, dramatik başlanğıc və sonluqları olmurmu? Olur. Cığatelin bu sevgi "oyunu" bizə həmin bu dialektikanı xatırladır. N.Gəncəvinin kəhrəba-maqnit cazibəsi əslində bu qanunauyğunluqdan, insan varlığının özül daşından xəbər vermirmi. Cığatelin kitabda oturaqlaşmış bir çox məhəbbət şeirlərinin mayası elə bu "oyun"ların üzərində qurulub. İnsan özündəki, əməlindəki heyranlıq duyğularını əslində qurduğu, yaratdığı bu "oyun"larda ifadə edir. Bu "oyun"un klassik bir nümunəsi isə "Gedirəm qurban olmağa" şeiridir. Eşqin mizanının düzmü, səhvi qurulduğunun fərqinə varan poetik "mən"in "toplayaq, gəl bölək, məxrəcə gələk, hesabı düz olsun bu məhəbbətin" çağırışı "oyun" formatında ideal sevgi reallığında görünür bu sevgi, hətta İlahi bir ucalığa yüksəlir, "Sevgiyə Allah demişəm" söyləyir.

Haqq eşqimi Tanrı bilib
Sevgiyə Allah demişəm...
Ruhuma dadıb sevgini,
Eşqə Bismillah demişəm...

Yaş endirib, namazımı,
Kipriklərimlə qılmışam.
Ah çəkib, dua yerinə,
Gecə-gündüz ağlamışam.

İbadətə müştəhəbdir
Qurbanlıq, zəkat, sadağa,
Qibləmi göstərin mənə,
Gedirəm qurban olmağa.

Doğmayıb, doğulmayıb söylənən Allah bəlkə də elə mövcudatın, külli-kainatın özüdür. Şairənin də ibadət qibləsi məhz Allaha yönəmlidir. Şairənin realist sevgi şeirlərinin ruhuna bax bəlkə irfani qüdsiyyət, xislət tapıb. Bu cür şeirə "klassika" deməmək mümkün deyil. Bəs "Bu sevgimiz nağıllara bənzədi" şeirinin özəlliyi nədədir? Ritm, səs, söz ahəngi, vəzn ölçüsü, məzmun tamlığı, forma ifadəsi, ideya aydınlığı - hamısı öz yerində. Özəllik isə nağıllara bənzəyən sevginin nağıl kodlarıyla - ağ qoç, qara qoç, qara div, üç alma, gəlin-şanapipik, min bir gecə Şəhrizadı, biri vardı biri yox - ilişqəli təqdimatındadır. Məhz bu kodlar sevənlərin sevgisini realist nağıllar silsiləsinə daxil edə bilib. Mifik ilkinliyi, təmizliyi öz üzərinə götürən bu kodlar həyatın reallığıyla vəhdətdə sevgi-nağıl sindromunu məftuniyyət və ülviyyət duyğusallığına bürüyüb, onun məzmun arealını gözəllik qanunlarıyla mayalayaraq təsirlilik, bədii-estetik vüsətinə sağlam ruh bəxş etmişdir.

Bu sevginin Allahı var, Piri yox,
Bu sevginin sehiri var, sirri yox,
Deyəcəklər: - "Biri vardı, biri yox",
Bu sevgimiz nağıllara bənzədi.

Əslində "Mənim ürəyimdəsən" şeirində də hər şey öz yerində, nizamında, qaydasındadır. Bəs bu şeirin özəlliyi nədən ibarətdir? - "Müxəmməs"; hər bəndin ilk üç misrası və son iki misrası həmqafiyə, hər bəndin son misraları isə sonuncu bəndin son misrası ilə həmqafiyə. Göründüyü kimi sistemli "Müxəmməs"in tələbləri pozulub. Şeir isə bundan qətiyyən uduzmayıb, uğuruna imza atıb, "Mənim ürəyimdəsən" gerçəkliyini təsdiqləyib.

***(Davamı var)***